**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

=====================================================

*Əlyazması hüququnda*

**LALƏ MÜSƏLLİM QIZI VƏLİYEVA**

# MÜƏSSİSƏLƏRİN ÖDƏMƏ QABİLİYYƏTİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**5308.01-"Ümumi iqtisadiyyat"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2015**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi, iqtisad üzrə elmlər doktoru, professor
**Tofiq Əvəz oğlu Quliyev**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru
**Cəmilə Bayram qızı Namazova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Yusif Binnət oğlu Əhmədov**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Neft Akademiyası**

Müdafiə 19 sentyabr 2015-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 18 avqust 2015-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Bazar münasibətlərinin inkişaf etdiyi və təkmilləşdiyi müasir mərhələdə Azərbaycanın xalq təsərrüfatının maliyyə qarşılıqlı əlaqələrinin strukturunda müəssisələrin maliyyəsi əsas, müəyyənedici mövqe tutur, belə ki, o, maddi və qeyri-maddi nemətlərin və üstün resurs kütləsinin yaradıldığı ictimai istehsalın əsas həlqəsinə xidmət edir. Keçid dövründə Azərbaycanın iqtisadiyyatında radikal sosial-iqtisadi dəyişikliklər, yeni istehsal münasibətləri sisteminin formalaşması, bazar qiymətəmələgəlmə mexanizminin tətbiqi, yüksək vergi dərəcələri, kredit resurslarının baha olması bir çox təsərrüfat subyektlərinin, o cümlədən sənaye müəssisələrinin maliyyə vəziyyətinin kəskin pisləşməsinə və ödəmə qabiliyyətinin itirilməsinə gətirib çıxarmışdı. Yaranmış vəziyyət fonunda ilk növbədə mikrosəviyyədə ödəmə qabiliyyətinin təhlili və onun möhkəmləndirilməsi yollarının axtarışının zəruriliyi xüsusi aktuallıq kəsb edir. Odur ki, məhz mülkiyyət formasından asılı olmayaraq müəssisələrin fəaliyyəti bazar iqtisadiyyatının əsasını təşkil edir.

Ödəmə qabiliyyətinin möhkəmləndirilməsi problemi ödəmə qabiliyyəti səviyyəsinə daha sərt nəzarətə, təhlil olunan göstəricilərin böyük dəstindən istifadəyə, təsərrüfat subyektinin reytinqinin müəyyən edilməsinə istiqamətləndirilmiş prinsipial yeni metodikaların işlənib hazırlanması və tətbiqini, eyni zamanda onun dəstəklənməsi üzrə səmərəli tədbirlərin görülməsini tələb edir.

İqtisad elmində müəssisənin ödəmə qabiliyyətinin mahiyyətinin müəyyən edilməsi və müfəssəl nəzərdən keçirilməsi əsas problemlərdən biridir. Onun kəskinliyi müəssisənin əsas istehsal məqsədlərinə nail olunması fonunda fəaliyyət göstərən maliyyə mexanizmlərinin yaradılması və təkmilləşdirilməsi zəruriliyi ilə bağlıdır. Vahid şəklə salınmış, ancaq eyni zamanda qeyri-standart yanaşmalar da mümkündür. Hər bir halda təsərrüfat subyektinin ödəmə qabiliyyətini və işgüzar nüfuzunu formalaşdıran xüsusi amillər kompleksi nəzərə alınmaqla qərar qəbul edilməlidir.

Bütün bu cəhətlər, eyni zamanda problemin ayrı-ayrı nəzəri və praktiki aspektlərinin kifayət dərəcədə öyrənilməməsi aparılan tədqiqatın aktuallığını və istiqamətin seçilməsini müəyyənləşdirmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycanda müəssisənin ödəmə qabiliyyəti problemləri ilə AMEA-nın akademiki Z.Ə.Səmədzadə, AMEA-nın müxbir üzvü A.F.Musayev, iqtisadçı alimlər H.İ.Namazəliyev, T.Ə.Quliyev, S.M.Səbzəliyev, D.A.Bağırov, T.Ə.Hüseynov, M.Sadıqov, Z.F.Məmmədov, C.Namazova, Q.Ə.Abbasov, R.B.Əliyev və başqaları



məşğul olmuşlar.

Müəssisənin ödəmə qabiliyyəti probleminin tədqiqinə xarici ölkə iqtisadçı alimlərindən L.A.Bernstayn, Y.Briqhem, Van Xorn C., L.Qapenski, T.R.Karlin, B.Kolass, J.Rişar, E.Helfert, Cey K.Şim, rus alimlərindən İ.A.Blank, T.B.Berdnikova, L.T.Gilyarovskaya, A.V.Qraçov, L.V.Dontsova, O.V.Efimova, H.B.Kireyeva, V.V.Kovalyov, M.N.Kreynina, E.İ.Melnikova, Q.V.Savitskaya, A.D.Şeremet və başqaları öz töhfəsini vermişlər.

Ancaq Azərbaycan iqtisadiyyatının şərait və xüsusiyyətlərinə uyğunlaşdırılmadan müəssisələrin ödəmə qabiliyyətinin qiymətləndirilməsi sferasında toplanmış qərb ölkələrinin təcrübəsindən istifadə düzgün olmayan nəticələrə gətirib çıxara bilər. Konkret xarici metodikanın tətbiqi Azərbaycan müəssisələrinin ödəmə qabiliyyətinin nəzəriyyə və təcrübəsindən istifadənin mümkünlüyü əvvəlcədən elmi cəhətdən təhlil ediməli və tənqidi dərk edilməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müəssisələrin ödəmə qabiliyyətinin nəzəri cəhətdən əsaslandırılması, onun qiymətləndirilməsinə dair elmi-əsaslandırılmış yanaşmaların işlənib hazırlanması və ödəmə qabiliyyətinin artırılması istiqamətlərinin axtarışından ibarətdir.

Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini tələb edir:

- müəssisələrin ödəmə qabiliyyəti anlayışının tərifini dəqiqləşdirmək;
- müəssisələrin ödəmə qabiliyyətinin qiymətləndirilməsi ilə bağlı əsas nəzəri baxışları öyrənmək;
- müəssisələrin maliyyə vəziyyətinin təhlili metodikasının mahiyyətini və onun reallaşması mexanizmini başa düşmək üçün fəaliyyətdə olan və təcrübədə tətbiq edilən maliyyə vəziyyətinin təhlili metodikalarını araşdırmaq;
- maliyyə dayanıqlığını qiymətləndirmək üçün istifadə edilən müxtəlif əmsal və göstəriciləri təhlil etmək;
- ödəmə qabiliyyətinin sistemli təhlilinin təmin edilməsi məqsədi ilə sənaye müəssisələrinin əsas vəzifələrini müəyyənləşdirmək;
- pul vəsaitləri axınının öyrənilməsi əsasında müəssisənin ödəmə qabiliyyətini qiymətləndirmək;
- müəssisələrin müflisləşməsi vəziyyətinin baş verməsinin əsas səbəblərini araşdırmaq;
- müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsi üçün maliyyə göstəricilərinin seçilməsini müəyyən edən amilləri öyrənmək;
- ödəmələrin vaxtlı-vaxtında həyata keçirilməsinin təmin edilməsinin

əsas istiqamətlərini müəyyənləşdirmək;

- müəssisələrin ödəmə qabiliyyətinin artırılması üçün maliyyə sağlamlaşdırılması tədbirlərini işləyib hazırlamaq.

**Tədqiqat obyekti** sənaye müəssisələrinin ödəmə qabiliyyəti və onun təmin edilməsidir.

**Tədqiqatın predmeti** müəssisələrin ödəmə qabiliyyətinin artırılması istiqamətlərinin müəyyən edilməsidir.

**Tədqiqatın nəzəri və metodoloji** əsasını yerli və xarici ölkə iqtisadçılarının müddəa, konsepsiya və hipotezləri, eyni zamanda iş üzrə qanunvericilik və normativ aktlar təşkil edir. Tədqiqat gedişində müşahidə, müqayisə və analogiyadan, müqayisəli, struktur, statistik, sistemli və amillər üzrə təhlildən, elmi abstraksiya və ekspert qiymətləndirilmədən istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiyada Azərbaycan Respublikası Prezidentinin problemlə bağlı sərəncamları, bu sahədə qəbul olunmuş normativ aktlar, respublika hökumətinin qərarları, Dövlət Statistika Komitəsinin məlumatları, ARDNŞ-in müəssisələrinin məlumatlarından istifadə olunmuşdur.

Dissertasiya işinin **elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə dair nəzəri yanaşmalar əsaslandırılmışdır;
- müəssisənin ödəmə qabiliyyəti sisteminin formalaşması metodikası işlənib hazırlanmışdır;
- ödəmə qabiliyyəti və maliyyə dayanıqlığının qiymətləndirilməsi üçün istifadə edilən göstərici və əmsallar müəyyən edilmişdir;
- müəssisənin likvidliyi və ödəmə qabiliyyəti göstəriciləri arasındakı qarşılıqlı əlaqələr aşkara çıxarılmışdır;
- sənaye müəssisələrində ödəmə qabiliyyətinin təhlilinin əhəmiyyəti əsaslandırılmışdır;
- müəssisənin ödəmə qabiliyyətsizliyinin səbəbləri aşkar edilmişdir;
- dövlət borcu olduqda cari likvidliyin qiymətləndirilməsi metodikası formalaşdırılmışdır;
- müəssisələrin ödəmə qabiliyyətinin artırılması üçün maliyyə sağlamlaşdırılması tədbirləri irəli sürülmüşdür;
- ödəməmələr probleminin aradan qaldırılması yolları göstərilmişdir.

**İşin təcrübi əhəmiyyəti.** İşin nəzəri və təcrübi əhəmiyyəti ondan ibarətdir ki, bazar münasibətlərinin bərqərar olduğu və inkişaf etdiyi şəraitdə müəssisənin ödəmə qabiliyyətinin nəzəri əsaslarının işlənməsi və qiymətləndirilməsi imkanları yüksək səmərəli və sabit bazar iqtisadiyyatına keçidi



təmin edən ödəməmələr böhranının həlli üçün strateji istiqamətlərin işlənməsinə kömək edir.

Müəssisənin ödəmə qabiliyyətinin təhlilinin təklif edilən metodikası dövlət orqanları və müxtəlif idarələr tərəfindən təsərrüfat subyektlərinin real ödəmə qabiliyyətinin aydınlaşdırılması üçün istifadə oluna bilər.

Dissertasiyanın materialları müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin nəzəri və praktiki məsələlərinin öyrənilməsində,onun ödəmə qabiliyyətinin yüksəldilməsinin təmin edilməsində istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiyanın ayrı-ayrı müddəaları və işdə irəli sürülən əməli təkliflər və tövsiyələr haqqında müxtəlif aşağıdakı konfranslarda çıxış edilmişdir: "İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri" beynəlxalq elmi konfransı (2012), Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı ( 2013), və Ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanın sosial-iqtisadi inkişafının aktual problemləri" mövzusunda elmi praktik konfransı (2013).

Tədqiqatın əsas müddəaları əldə olunan nəticələr və irəli sürülən təkliflər Azərkimya İstehsalat Birliyinin "Etilen-Polietilen"zavoduna təqdim edilmiş və istifadə haqqında arayiş alınmışdır (01/08-854, 02.05.2014-cü il).

**İşin həcmi və strukturu.** Dissertasiya işinin həcmi 160 səhifədən: giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin iqtisadi ədəbiyyatda öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, nəzəri - metodoloji əsasları, tədqiqatın metodu, tədqiqatın informasiya bazası, tədqiqatın elmi yeniliyi, işin təcrübi əhəmiyyəti, işin ilkin aprobasiyası və nəticələrin tətbiqi və s. göstərilmişdir.

İşin **"Müəssisənin ödəmə qabiliyyətliliyinin qiymətləndirilməsinin nəzəri əsasları"** adlanan birinci fəslində müəssisənin ödəmə qabiliyyəti, kredit qabiliyyəti və likvidliyinin mahiyyəti və əhəmiyyəti açıqlanır, ödəmə qabiliyyətinin qiymətləndirilməsi metodikası əsaslandırılmış, müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə müxtəlif yanaşmalar nəzərdən keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev sənaye müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasını,onların ödəmə qabiliyyətliliyinin yüksəldilməsini ümumiyyətlə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən biri hesab edirdi.Tənzimlənən bazar iqtisadiyyatı

modelinin tərəfdarı olan H.Əliyev Azərbaycan xalqının iradəsi ilə 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra onun iqtisadiyyatımızla əlaqədar ilk tədbirlərindən biri 1994-cü ilin iyul ayında imzaladığı Azərbaycanda maliyyə sisteminin tənzimlənməsi və maliyyə sabitliyinin təmin olunması haqqında Prezident Fərmanı oldu.Həmin fərmanin eləcə də bu fərmandan sonra qəbul edilmiş digər qərarların yerinə yetirilməsi nəticəsində ölkə iqtisadiyyatında mövcud inflyasiya proseslərinin qarşısı alındı,bununla da sənaye müəssisələrinin maliyyə vəziyyəti sabitləşmiş ,onların ödəmə qabiliyyəti yaxşılaşmış oldu.

Milli iqtisadiyyatın inkişafını ləngidən əsas amillərdən biri müəssisələrimizin ödəmə qabiliyyətliliyinin aşağı olmasıdır.Bu sahədə aparılan tədqiqatlarla bağlı akademik Z.Səmədzadənin fikirlərini xüsusilə qeyd etmək lazımdır. O belə demişdir:

“Müasir iqtisadiyyatın ən kəskin və aktual problemlərindən biri ödəməmə böhranıdır.Ödəniş böhranının spesifik xüsusiyyəti onun istehsala,eləcə də büdcə maliyyə sisteminə,ölkədə bazar münasibətlərinin inkişafına dağıdıcı təsir göstərməsi ilə bağlıdır.İnamla deyə bilərik ki,bu problemin həlli xalq təsərrüfatının sabitləşməsi üçün böyük potensial təşkil edir.”

Dissertasiyanın bu fəslində göstərilmişdir ki, müəssisənin ödəmə qabiliyyəti ilə kredit qabiliyyəti anlayışlarının fərqi ondan ibarətdir ki, ödəmə qabiliyyəti dedikdə müəssisənin borclarını vaxtında və tamamilə qaytarması qabiliyyətini ifadə edən onun kredit münasibətlərinin subyekti qismində xarakteristikası başa düşülür. Kredit qabiliyyətliliyi anlayışı təbii olaraq kreditin mahiyyətindən irəli gəlir ki, onun da əsas xüsusiyyətlərindən biri kreditor tərəfindən borc alana müddətli və faizlə verilən dəyərin qaytarılmasıdır. Ödəmə qabiliyyətliliyi və kredit qabiliyyətliliyi eyni əmələ gəlmə təbiətinə malikdir. Bununla yanaşı, fikrimizcə, birinci anlayış əhəmiyyətinə görə sonuncu anlayışdan daha genişdir.

Daha bir maliyyə göstəricisi isə müəssisənin likvidliyi göstəricisidir. Likvidlik anlayışının mahiyyəti bir çox tədqiqatçılar tərəfindən uğurla açılmışdır. Ödəmə qabiliyyəti və likvidliyin qarşılıqlı əlaqəsinə gəldikdə bu iki hadisənin sıx şəkildə bir-birinə təsirini qeyd etmək lazımdır. Müəssisənin likvidliyini itirməsi isə onun ödəmə qabiliyyətsizliyini və sonrakı müflisləşməsini bildirir.

Ödəmə qabiliyyətinin üç xarakteristikasını göstərmək olar ki, onlardan heç olmazsa biri istənilən müəllifin izahında vardır:

1) öhdəlikləri vaxtında və tələb olunan həcmdə yerinə yetirmək qabiliyyəti;

2) öz öhdəliklərini pul formasında ödəmək qabiliyyəti;



3) öhdəliklər ödənildikdən sonra fasiləsiz fəaliyyəti davam etdirmək qabiliyyəti.

Müəssisələrin maliyyə vəziyyətinin təhlili metodikasının mahiyyətini və onun reallaşması mexanizmini başa düşmək üçün fəaliyyətdə olan və təcrübədə tətbiq edilən maliyyə vəziyyətinin təhlili metodikalarının bir çoxunun mahiyyətinə baxmaq lazımdır. Bəzi iqtisadçılar bütün maliyyə əmsallarını dörd qrupda birləşdirməyi təklif edirlər: 1. Likvidlik əmsalları; 2. Borc kapitalının xüsusi çəkisi əmsalları (borc əmsalları); 3. Kreditlər üzrə faizlərin təminatlılığı əmsalları; 4. Rentabellik əmsalları;

Bununla yanaşı ödəmə qabiliyyəti və maliyyə dayanıqlılığının qiymətləndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə etmək təklif olunur.

1. Ümumi ödəmə qabiliyyəti dərəcəsi- təşkilatın borc vəsaitləri məbləğinin orta aylıq mədaxilə nisbəti kimi müəyyən edilir.

2. Bank kreditləri və borclar üzrə borc əmsalı- uzunmüddətli passiv və qısamüddətli bank kreditləri və borcları cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

3. Başqa təşkilatlara borc əmsalı -“tədarükçü və podradçılar”, “ödəmə veksellləri”, “alınan avanslar”, “sair kreditorlar” sətirləri üzrə öhdəliklərin cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

4. Fiskal sistemə borc əmsalı -“dövlət büdcədənkənar fondları qarşısında borc” və “büdcə qarşısında borc” sətirləri üzrə öhdəliklər cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

5. Daxili borc əmsalı- “təşkilatın heyəti qarşısında borc”, “gəlirlərin ödənməsi üzrə iştirakçılara borc”, “gələcək dövrün xərcləri”, “qarşıda duran xərclərin ehtiyatı”, “sair qısamüddətli öhdəliklər” cəminin orta aylıq mədaxilə nisbəti kimi hesablanır.

6. Cari öhdəliklər üzrə ödəmə qabiliyyəti dərəcəsi- təşkilatın cari borc vəsaitlərinin (qısamüddətli öhdəliklərinin) orta aylıq mədaxilə nisbəti kimi müəyyən edilir.

7. Cari öhdəliklərin dövriyyə aktivləri ilə ödənməsi əmsalı- ehtiyatlar, debitor borcu, qısamüddətli maliyyə qoyuluşları, pul vəsaitləri və sair aktivlər şəklində bütün dövriyyə vəsaitlərinin dəyərinin təşkilatın cari öhdəliklərinə nisbəti kimi hesablanır.

8. Dövriyyədəki xüsusi kapital- təşkilatın xüsusi kapitalı ilə onun dövriyyədən kənar aktivləri arasında fərq kimi hesablanır.

9. Dövriyyə vəsaitlərində xüsusi kapitalın payı (xüsusi vəsaitlərlə təmin olunma əmsalı)- dövriyyədəki xüsusi vəsaitlərin dövriyyə vəsaitlərinin bütün kəmiyyətinə nisbəti kimi hesablanır.

10. Avtonomluq (maliyyə müstəqilliyi) əmsalı- xüsusi kapitalın

təşkilatın aktivlərinin məbləğinə nisbəti kimi hesablanır.

Birinci yeddi göstərici müəssisənin ödəmə qabiliyyəti dərəcəsini, yerdə qalan üç göstərici isə - onun maliyyə dayanıqlığı səviyyəsini xarakterizə edir. Kreditor borcunun ayrı-ayrı növlər üzrə müəyyən dərəcələrə bölünməsi ödəmə qabiliyyətinin qiymətləndirilməsinin, bu metodikanın əsas xüsusiyyətidir. Göstərilən əmsalların spesifik xüsusiyyəti həm də ondan ibarətdir ki, müəssisənin orta aylıq mədaxili onların müəyyən edilməsi üçün baza təşkil edir.

Maliyyə təhlilinin nəzəriyyə və təcrübəsindəki müasir meyllər maliyyə əmsalları sisteminin şəkildəyişməsi, bu sistemin maliyyə menecmenti sahəsində adekvat idarəetmə qərarlarının qəbul edilməsi üçün əlverişli olan formaya gətirilməsi problemi ilə bağlıdır. Bunun üçün mövcud maliyyə əmsallarından az miqdarda elə əmsalları seçmək lazımdır ki,onlar müəssisənin maliyyə vəziyyətini tam və hərtərəfli xarakterizə etsinlər. Bu seçimi iki üsulla həyata keçirmək olar: ekspert üsulu və statistik üsulla.

Dissertasiyada qeyd olunur ki, müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə yanaşmalar müxtəlif əsaslara görə təsnifləşdirilə bilər:

1. Təhlil üsuluna görə - adətən, cədvəl, əmsal və qrafik üsulunu ayırırlar.

2. Təhlil aparılan subyekt üzrə - ən ümumi halda müəssisənin daxili xidmətləri və xarici informasiya istifadəçiləri tərəfindən aparılan təhlili ayırmaq olar.

3. Təhlilin aparılması məqsədləri üzrə - məsələn, əgər yaranmış vəziyyətin səbəblərini araşdırmaq (retrospektiv təhlil) və yaxud, əksinə, müəssisənin maliyyə vəziyyətinin gələcək idarə edilməsi üçün tövsiyələr işləyib hazırlamaq (perspektiv təhlil) məqsədi güdülürsə.

4. İstifadə edilən informasiyanın xarakterinə görə üç yanaşmanı ayırmaq olar: birinci yanaşma şərti olaraq balans yanaşması; ikinci yanaşma dövriyyəyə əsaslanan yanaşma adlandırılır; qarışıq olan üçüncü yanaşma da mövcuddur ki,bu zaman o, istər balans, istərsə də dövriyyə məlumatlarından istifadə edilir.

Ödəmə qabiliyyətinin təhlilinə ən geniş yayılmış yanaşmalardan biri öhdəliklərin ödənməsi üçün istifadə edilə bilən aktivlərlə bu öhdəliklərin müqayisəsindən ibarətdir. Məlum yanaşma çərçivəsində daha çox bir sıra əmsalların hesablandığı təhlilin əmsal üsulu (bir qayda olaraq, mühasibat balansının məlumatları əsasında) tətbiq olunur.

Mühasibat balansının məlumatlarından istifadə etməklə təhlilin əmsal üsulu ödəmə qabiliyyətinin təhlilinin ən geniş yayılmış üsuludur. Bu yanaşmanın üstün cəhətlərinə aşağıdakıları aid etmək olar: hesablamanın sadəliyi, əmsalların hesablanması üçün məlumatların əlverişliliyi və baxılan



əmsalların iqtisadi mənasının izahının nisbətən sadəliyi.

Eyni zamanda bu yanaşma bir sıra çatışmazlıqlara malikdir. Birincisi, çətin ki, bu göstəricilərin təhlili nəticəsində əldə edilən nəticələri təkcə hesabat tarixinə deyil, bütünlükdə müəssisənin vəziyyətinə şamil etmək qanunauyğun olsun, ikincisi, əmsalların dövrün sonu və əvvəlinə hesablanması, təhlilçiyə yalnız vəziyyətin yaxşılaşması və yaxud pisləşməsini təsdiq etmək imkanını saxlayaraq dövr ərzində nə baş verdiyi və müəssisənin ödəmə qabiliyyəti vəziyyətinin dəyişikliyi səbəbləri haqqında heç bir informasiya vermir. Bundan başqa mühasibat balansının tərtib edildiyi tarix (adətən, ayın ilk günü) müəssisənin maliyyə vəziyyətindən təmsilçilik nöqteyi-nəzərindən uzaq ola bilər. Mühasibat balansının müqayisəsi zamanı məlumatların manipulyasiyası imkanını da nəzərə almaq lazımdır, bu isə onun bu və ya digər qiymətinin təhrif olunmasına gətirib çıxara bilər.

Ödəmə qabiliyyətinin qiymətləndirilməsinə yanaşmaların aparılan təhlili nəticələrini müzakirə etdikdə görünür ki, hansı yanaşmanın məhz daha optimal olması sualına birmənalı cavab mövcud deyil. Hər bir yanaşmanın həm üstünlüyü, həm də çatışmazlığı vardır. Müvafiq olaraq təhlil üçün daha əlverişli göstəricilərin seçilməsi probleminin həlli bu üstünlük və çatışmazlıqların nəzərə alınması ilə əsaslandırılmalıdır, eyni zamanda təhlilin aparıldığı məqsəddən irəli gəlməlidir.

Dissertasiyanın **“Sənaye müəssisələrində ödəmə qabiliyyətinin təhlili”** adlandırılan ikinci fəslində sənaye müəssisələrində ödəmə qabiliyyətinin təhlilinin əhəmiyyəti, vəzifələri və informasiya mənbələri, pul vəsaitləri axınının öyrənilməsi əsasında müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsi, müəssisənin müflisləşməsi ehtimalının diaqnostikası metodları haqqında məlumat verilmiş, ödəmə qabiliyyəti olmayan müəssisələrin maliyyə vəziyyətinin təhlili xüsusiyyətləri tədqiq edilmişdir.

H.Əliyev Sumqayıt şəhərinin sənaye müəssisələrinin, o cümlədən Etilen-Polietilen zavodunun inkişaf etdirilməsinə xüsusi qaygıkeşliklə yanaşmışdır. O,1999-cu ilin martında Etilen-Polietilen zavodunda buxar generator qurğusunun özülünün qoyulması və 2001-ci ilin iyul ayında həmən qurğunun istifadəyə verilməsi mərasimlərində şəxsən iştirak etmiş, məzmunlu nitqlə çıxış etmişdir.Özülqoyma mərasimində o belə bir fikir söyləmişdir:

“...İndi bizim sənayemiz,iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmalıdır.Sumqayıtda yaradılmış sənaye müəssisələri indi əvvəlki gücü ilə işləmir.Bizim məqsədimiz sənaye müəssisələrini müasir tələblərə, bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaqdan və bunlara yeni həyat verməkdən ibarətdir.Bilin ki,biz bu sahədə çox işlər görmüşük

və görürük.İnanıram ki,görülən işlər gələcəkdə öz nəticəsini verəcəkdir.”

Azərbaycan Nazirlər Kabinetinin “Dövlət əmlakının özəlləşdirilməsi nəticəsində müəssisələrin və səhmdar cəmiyyətlərin dövlətə və dövlət müəssisələrinə yaranan vaxtı keçmiş borclarının ödənilməsi şərtləri haqqında” 23 may 1997-ci il tarixli qərarı 90-cı illərin ortalarında yaranmış ödəniş böhranının yumşaldılmasında mühüm rol oynadı.Belə ki,həmin qərara əsasən tam özəlləşmədən sonra borcların ödənilməsini stimullaşdırmaq məqsədi ilə güzəştli şərtlər tətbiq edildi.Bu şərtlər aşağıdakılardan ibarət idi:

Əgər borcların həcmi nizamnamə fondunun 5%-ni təşkil edərsə borclar 6 ay müddətində, 5-10% təşkil edərsə bir il ərzində,10-20% edərsə iki il ərzində,20-30% təşkil edərsə üç il ərzində və nəhayət 30%-dən çox təşkil edərsə beş il ərzində ödənilə bilər.

Bazar münasibətlərinə keçidlə əlaqədar olaraq müəssisə və təşkilatlar tərəfindən pul vəsaitinin xərclənməsində sərbəstliyin təmin edilməsi və bu sahədə mövcud məhdudiyyətlərin ləğv edilməsi zəruridir.Lakin bu,o halda lazımi səmərə verir ki,bank sisteminin idarə olunması müasir tələblər səviyyəsində təşkil edilsin,nəğdsiz hesablaşmalarda mövcud olan çətinliklər aradan qaldırılsın,nəğd pul əməliyyatları üzrə bank xidmətinin səviyyəsi yüksəldilsin.Bazar iqtisadiyyatı şəraitində belə tədbirlər inzibati metodlarla deyil,iqtisadi işin səviyyəsini yüksəltmək hesabına həyata keçirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin 9 ayının sosial iqtisadi inkişafının yekunlarına dair iclasında çıxış edərək bildirmişdir ki, Azərbaycanda sənayeləşmə siyasəti aparılır. Həm dövlət tərəfindən, həm də dövlətin dəstəyi ilə özəl sektor bu işlərə fəal qoşulubdur. İri müəssisələrimiz bərpa olunur. O müəssisələr ki, vaxtilə sovet dovründə tikilib, indi yararsız vəziyyətdədir, onlar sökülür və o ərazilərdə yeni müəssisələr yaradılır. Bu proses xüsusilə Sumqayıt şəhərində çox sürətlə gedir. Sumqayıt vaxtilə kimya sənayesinin inkişafı sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu gün neft-kimya kompleksinin fəaliyyəti və əlavə planlarımızın həyata keçirilməsi ilə bərabər, Sumqayıt sənaye şəhərinə çevrilməlidir. Sumqayıtda tikilən texnopark bu istiqamətdə atılan ən vacib addımlardan biridir. Orada artıq bir neçə rəqabət qabiliyyətli müəssisə yaradılır. Biz elə etməliyik ki, Sumqayıtı bu istiqamətdə inkişaf etdirək və Sumqayıt Azərbaycanın sənaye mərkəzinə çevrilsin. Sənaye sahəsinin inkişafı üçün Sumqayıtın xüsusi yeri vardır.

Bu baxımdan dissertasiya işində sənaye müəssisəsinin ödəmə qabiliyyətinin təhlili üçün tədqiqat obyekti kimi Azərkimya İstehsalat Birliyinin “Etilen-Polietilen” zavodunun məlumatlarından istifadə edilmişdir.

Sənaye müəssisələrində ödəmə qabiliyyəti göstəricilərinin dəyişikliyi



səbəblərinin aydınlaşdırılması üçün pul vəsaitlərinin daxil və xaric olması üzrə planın yerinə yetirilməsinin təhlili böyük əhəmiyyət kəsb edir. Bunun üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabat məlumatlarını biznesplanın maliyyə hissəsinin məlumatları ilə müqayisə edirlər. İlk növbədə əməliyyat, investisiya və maliyyə fəaliyyətindən pul vəsaitlərinin daxil olması üzrə planın yerinə yetirilməsini müəyyən etmək və plandan kənarlaşma səbəblərini aydınlaşdırmaq lazımdır.

Müsbət, mənfi və xalis pul axınlarının əmələ gəlməsi amillərinin öyrənilməsi üçün birbaşa və dolayı metodlardan istifadə etmək tövsiyə edilir.

Birbaşa metod hesabat dövründə müəssisənin pul vəsaitlərinin həm ümumi, həm də xalis axınını xarakterizə edən məlumatların əldə edilməsinə istiqamətlənmişdir. Birbaşa metodun üstünlüyü ondadır ki, o, daxil olma və ödəmələrin ümumi məbləğini göstərir və diqqəti pul vəsaitlərinin ən böyük daxil və xaric olmasını generasiya edən maddələrə cəmləşdirir. Ancaq bu metod maliyyə nəticələrinin miqdarı və pul vəsaitlərinin dəyişməsinin miqdarının qarşılıqlı əlaqəsini açmır, gəlirli müəssisənin ödəmə qabiliyyətsiz olduğu vəziyyətin nə üçün yarandığını göstərmir.

Dolayı metod təhlil nöqteyi-nəzərdən daha üstündür, belə ki, o maliyyə nəticəsi ilə sərbəst nağd pul artığı (qalığı) arasında uyğunsuzluğun səbəblərini izah etməyə imkan vermir.

Qeyd olunur ki, sənaye müəssisələrinin ödəmə qabiliyyətinin artırılmasının əsas istiqamətlərindən biri onun debitor və kreditor borclarının müəyyən edilməsidir. Debitor və kreditor borcların müəyyənləşdirilməsi faktiki olaraq debitor və kreditor borclarla baqlı müəssisənin fəaliyyətinin birinci mərhələsidir. İkinci mərhələdə debitor və kreditor borcları təhlil edilir. Bu zaman debitor və kreditor borcları müxtəlif əlamətlərdən asılı olaraq (məsələn, yaranma səbəblərindən, növündən,təsərrüfat subyektlərinin müxtəlifliyindən və s.) qruplaşdırılır, onun tərkibi öyrənilir və ətraflı təhlil olunur.

Ücüncü mərhələdə debitor və kreditor borclarının aradan qaldırılması üzrə konkret tədbirlər planı işlənib hazırlanır və onların həyata kecirilməsi təmin edilir.

Etilen – Polietilen zavodu üzrə formalaşan debitor və kreditor borcları ikinci mərhələdə aşağıdakı əlamətlər üzrə qruplaşdırılır:

- dövlət müəssisələri üzrə olan debitor və kreditor borcları;
- qeyri dövlət müəssisələri üzrə olan debitor və kreditor borcları;
- Dövlət Neft Şirkətinin strukturuna daxil olan müəssisələr üzrə olan debitor və kreditor borcları;
- digər idarə və təşkilatlar üzrə olan debitor və kreditor borcları. Bura DSMF, Maliyyə Nazirliyi, Beynəlxalq Bank, təhtəl hesab şəxlərlə hesab-

laşmalar. Eləcə də əmək haqqı üzrə borclar və s. daxildir.

Ayrı – ayrı təsərrüfat subyektləri üzrə debitor və kreditor borcları müəyyənləşdirildikdən və bu borclar yuxarıda gostərilən əlamətlər üzrə qruplaşdırıldıqdan sonra debitor və kreditor borcların yaranma səbəblərindən asılı olaraq konkret tədbirlər planı işlənib hazırlanır və həyata kecirilir.

Əsas məsələlərdən biri də müəssisənin müflisləşmə vəziyyətinin təhlil etmək və onun səbəblərini araşdırmaqdır.

Müflisləşmənin əsas əlaməti – ödəmə müddəti çatan gündən üç ay ərzində kreditorların tələblərinin yerinə yetirilməsini təmin etmək edilməməsidir.

Xarici ölkələrdə müəssisənin müflisləşmə riskini və kredit qabiliyyətliyini qiymətləndirmək üçün məşhur qərb iqtisadçıları olan Altman, Lis, Taffler, Tişou və başqaları tərəfindən çoxölçülü diskriminasiya təhlilinin köməyi ilə işlənmiş amillər üzrə modellərdən geniş istifadə edilir.

Müəssisənin ödəmə qabiliyyətinin olub-olmamasını müəyyən etmək üçün mühasibat uçotunun təqdim edilən sənədlərinin müfəssəl təhlilini aparmaq məqsədəuyğundur. Təhlilin bu mərhələsinin məqsədi – təşkilatın maliyyə vəziyyətinin pisləşməsi səbəblərini aşkara çıxarılmasıdır.

Müflisləşmə vəziyyətinin baş verməsinin əsas səbəbləri aşağıdakılardır:

1. Obyektiv səbəblər – konkret müəssisənin təsərrüfat şərtlərindən asılı olmayan səbəblər. Bura daxildir : dövlətin maliyyə pul, kredit, vergi sisteminin fəaliyyəti xüsusiyyətləri; mövcud olan qanunvericilik və normativ baza; inflyasiyanın səviyyəsi; valyuta məzənnəsinin, enerji daşıyıcılarının qiymətlərinin, dəmir yolu tariflərinin və s. dəyişməsi.

2. Subyektiv səbəblər, bilavasitə müəssisədən asılı olanlar. Bura daxildir: zəif idarəçilik – müflisləşməni qabaqcadan nəzərə almaq və gələcəkdə ondan qaçmaq bacarıqsızlığı; qeyri-kafi marketinq – tələbin öyrənilməməsi səbəbindən satış həcminin azalması, satış şəbəkəsinin, reklamın olmaması; istehsal həcminin azalması; əsaslandırılmamış qiymətəmələgəlmə; əsassız yüksək xərclər; aşağı rentabellik göstəriciləri; uzun istehsal tsikli; qarşılıqlı borclar və bunun nəticəsi olaraq – müəssisənin borcları; müəssisə kapitalının təkrar istehsalının iqtisadi mexanizminin qeyri-tarazlığı.

Göstərilənlərə əsaslanaraq deyə bilərik ki, müəssisənin həqiqi vəziyyətini müəyyən etmək, onun nə dərəcədə ödəmə qabiliyyətli olmasını qiymətləndirmək, eyni zamanda onun real perspektivlərini müəyyən etmək üçün ilk növbədə müəssisənin maliyyə göstəriciləri müfəssəl təhlil olunmalıdır.

Dissertasiya işinin **“Müəssisənin ödəmə qabiliyyətinin yüksəldilməsi istiqamətləri”** adlandırılan üçüncü fəslində ödəmə qabiliyyətinin qiymətləndirilməsi üçün göstəricilərin seçilməsi üzrə metodiki tövsiyələr və sistemin fəaliyyətinin nizama salınması tədbirləri, ödəmələrin vaxtında həyata keçirilməsinin əsas istiqamətləri, müəssisələrin ödəmə qabiliyyətinin artırılması üçün maliyyə sağlamlaşdırılması tədbirləri araşdırılmış və tədqiq edilmişdir.



Dissertasiya işinin bu fəslində ödəmə qabiliyyətinin qiymətləndirilməsi üçün bir neçə göstəricilər kateqoriyasından istifadə etmək təklif olunur.

1. Müəssisənin öz maliyyə vəziyyətini xarakterizə edən göstəricilər.
2. Xarici mühitlə qarşılıqlı əlaqəni xarakterizə edən göstəricilər.
3. Daxili biznes-prosesləri xarakterizə edən göstəricilər.

Fikrimizcə, müəssisənin ödəmə qabiliyyətinin təhlili metodikası tətbiq sferasından asılı olaraq fərqlənməlidir, yəni potensial kontragentin ödəmə qabiliyyətinin yoxlanması üçün müəssisədə qısaldılmış variantda təhlil aparmağın mənası vardır. Nəzarət məqsədilə müəssisənin maliyyə xidmətləri ödəmə qabiliyyətinin vəziyyətini tam həcmdə təhlil etməlidirlər.

Dissertasiyanın üçüncü fəslində qeyd olunur ki, dövriyyə vəsaitlərinin dövriyyə qabiliyyətinin təhlili müəssisənin ödəmə qabiliyyətinin kompleks qiymətləndirilməsinin mühüm tərkib hissəsidir. Onun məqsədi – dövriyyə vəsaitlərinin dövriyyə sürətinin, eyni zamanda cari aktivlərin dövriyyə sürətinin və onun cari passivlərinin dövriyyə sürətinin aydınlaşdırılması – ödəmə qabiliyyətinin təhlili zamanı izah edilməli olan əsas məsələlərdən biridir. Xüsusi dövriyyə qabiliyyəti göstəricilərini təhlil edərək ümumi dövriyyə qabiliyyətinin sürətləndirilməsinin əsaslandırılmış ehtiyatlarını müəyyənləşdirmək olar, bu isə dövriyyə vəsaitlərinə olan tələbatı azaldar.

Müasir şəraitdə isə müəssisənin dövriyyə vəsaitlərinin dövriyyəsinin sayı və sürətinə onun fəaliyyətindən asılı olmayan müştərilərin ödəmə qabiliyyəti, bank xidmətinin keyfiyyəti, əmtəələr (işlər, xidmətlər) üzrə hesablaşmalar sistemi, inflyasiya və s. kimi amillər təsir göstərə bilər. Bununla əlaqədar olaraq debitor və kreditor borcunun təhlilinə böyük diqqət yetirilməlidir.

Debitor borcunun təhlilində əsas məqsəd – onun dövriyyə qabiliyyəti sürətinin müəyyən edilməsidir.

Debitor borcunun səviyyəsinin təhlili və nəzarətini dinamikada baxılan mütləq və nisbi göstəricilərin köməyi ilə aparmaq olar. Xüsusilə borcların debitorlar tərəfindən vaxtında ödənməsinə nəzarət edilməsi xeyli maraq kəsb edir.

Debitor borcunun təhlilini kreditor borcunun təhlili ilə tamamlamaq lazımdır. Kredit borcunun təhlili metodikası debitor borcunun metodikasına analojidir. Təhlil tədarükçülərlə hesablaşmalar, sair kreditorlarla haesablaş-

maların və s. analitik təhlili məlumatları əsasında aparılır. Kreditor borcunun mümkün ola bilməyən növlərinə diqqət yetirmək lazımdır, belə ki, bu, cərimə, penya, dəbbələmə puluna və s. səbəb ola bilər.

Kreditor borcunun dövriyyə qabiliyyəti sürətinin qiymətləndirilməsi üçün onun dövriyyə qabiliyyəti və orta dövretmə müddəti əmsallarından istifadə edə bilər.

Müasir iqtisadiyyatda ödəmələrin vaxtında həyata keçirilməsi probleminin həll edilməsi, fikrimizcə, onun xarici və daxili aspekti nəzərə alınmaqla baş verməlidir.

Azərbaycan iqtisadiyyatında, hər şeydən əvvəl, müəssisələrin normal fəaliyyət göstərməsi üçün şəraitin yaradılmasını tələb edən vəziyyət formalaşmışdır. Qeyd etmək lazımdır ki, bu, ilk növbədə, ödəməmələr böhranının həll edilməsinə aiddir. Buna görə də bu proqramın işlənməsi və onun həyata keçirilməsi yalnız Azərbaycan müəssisələrinin ödəmə qabiliyyətinə təsir göstərən bütün amillər kompleksinin nəzərə alınması ilə mümkündür. Bu məqsədlərlə iki qrup tədbirlərin – makroiqtisadi və hüquqi sferalarda və müəssisələrin özünün maliyyə cəhətdən sağlamlaşdırılması üzrə tədbirlərin yerinə yetirilməsi tələb olunur.

Azərbaycan müəssisələrinin real iş şəraiti, maliyyə vəziyyəti və ödəmə qabiliyyətinin öyrənilməsi qarşıya qoyulmuş vəzifəni – ödəmələr təminatının vaxtında həyata keçirilməsi üzrə tədbirlərin işlənməsini həll etməyə şərait yaratmışdır.

Nəinki yığılmış borcların ləğv edilməsi üçün, həm də onun baş verməməsi üçün ödəniş sisteminin təkmilləşdirilməsinin kifayət qədər əlavə tədbirləri mövcuddur. Bu cür tədbirlər sırasında elektron ödəniş sistemini, akkreditiv ödəniş sistemini və bir çox digərlərinin yayılmasını qeyd etmək olar. Maliyyə sağlamlaşdırılması tədbiri kimi monetar alətlər aşağıdakı məqsədlərə yönəldilməlidir:

- həyata keçirilən maliyyə sabitliyi tədbirləri müəssisələrdə daxili investisiya potensialının artırılmasını və onun kredit qabiliyyətinin yaxşılaşdırılmasını stimullaşdırır. Bu məqsədlə pul-kredit siyasətinin istiqamətləri hazırlanarkən istehsal sferasının vəziyyəti və istehsalın inkişafında tələbin və ya istehlakın üstün rola malik olması nəzərə alınmalıdır;
- müəssisələrlə maliyyə resursları bazarının gəlirlilik səviyyəsi arasındakı fərq azaldılmalıdır;
- müəssisələrdə aktivlərin tamamlanma mənbələrinin artırılması məqsədilə pul-kredit parametrləri və onun həyata keçirilməsi mexanizmi və bankların kredit siyasəti pul-kredit siyasətinin başlıca istiqamətləri ilə əlaqələndirilməlidir;



- hazırda müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşmasında banklar mühüm rol oynayır. Lakin müəssisələrlə kredit münasibətlərini yaxşılaşdırmaq məqsədilə inflyasiya və rentabellik səviyyəsi nəzərə alınmaqla, maliyyə resursları bazarının digər alətlərinin vasitəçilik fəaliyyətinin səmərəliliyi artırılmalı və resurs mənbələrinin əldə edilməsi üzrə faizlərin səviyyəsi real həddə qədər azaldılmalıdır;
- müəssisələrin borc vəsaitlərinə olan tələbatını və bankların inkişaf etdirilməsi zəruriliyini nəzərə alaraq pul-kredit siyasəti kredit fəaliyyəti üçün elə bir şəraitin yaradılmasına yönəldilməlidir ki, bu zaman banklar real sektorda iqtisadi fəaliyyətin canlandırılmasına təsir etmək marağında olsunlar. Bunun üçün müəssisələrin kredit qabiliyyəti qiymətləndirilməli, pul-kredit siyasətinin investisiya xarakteri artırılmalı, daxili tələbin stimullaşdırılmasında pul-kredit parametrlərindən aktiv istifadə edilməlidir;
- Mərkəzi Bankın faiz siyasəti kreditlər üzrə faiz dərəcəsini müəssisələrin maliyyə imkanına uyğunlaşdırmalı və kreditdən səmərəli istifadəyə şərait yaratmalıdır. Eyni zamanda, pul-kredit siyasəti bankların tədiyyə qabiliyyətinin onların maliyyə resurslarına adekvat olaraq artırılmasını təmin etməlidir;
- pul-kredit siyasətinin aləti kimi faiz dərəcəsinin iqtisadiyyatın, xüsusilə müəssisələrin əsas inkişaf istiqamətlərinə uyğun səviyyəyə qədər azaldılması həm müəssisələrin kreditləşdirilməsində bankların rolunu artıracaq və həm də faiz dərəcəsinin özünün aktivləşməsinə səbəb olacaq;
- müəssisələrin pul kütləsinə tələbatını öyrənmək məqsədilə mövcud pul alətlərinin strukturu təkmilləşdirilməlidir. Belə ki, pulun iqtisadiyyatda fəaliyyət istiqamətlərinə nəzarət etmək, pul kütləsini düzgün planlaşdırmaq və alətlərin iqtisadi proseslərə təsir səviyyəsini müəyyən etmək məqsədilə tətbiq edilən pul alətləri iqtisadi münasibətlərin bütün sferasını əhatə etməlidir.
- müəssisələrdə daxili resursların aktivləşdirilməsi çərçivəsində istehsal potensialının genişləndirilməsini təmin etmək məqsədilə real sektora borc vəsaitlərinin qoyuluşu və dövlət tərəfindən maliyyələşdirilməsi sahəsindəki mövcud məhdudiyyətlər azaldılmalı, real sektorun yanacaq-enerji kompleksindən maliyyə asılılığı aradan qaldırılmalı və istehsal sferasının maliyyə vəziyyətinin möhkəmləndirilməsi təmin edilməlidir;
- pul-kredit siyasəti vasitəsilə daxili borc münasibətləri elə bir istiqamətdə tənzimlənməlidir ki, nəticədə müəssisələrin aktiv borclanması mexanizminin tətbiqinə real imkanlar yaransın. Burada əsas məqsəd müəssisələrin borc vəsaitlərinə olan tələbatının ödənilməsində onun banklardan asılılığının azaldılması və uyğun bazar institutları arasında rəqabətin

yaradılması ilə borc vəsaitinin «ucuzlaşdırılmasını» təmin etməkdir;

- ölkədə qarşılıqlı borcların azaldılması üçün kredit münasibətlərinin təkmilləşdirilməsi zəruridir. Müəssisələrin inkişaf strategiyası bankların kredit siyasətindən əhəmiyyətli dərəcədə asılı olduğundan amillərin geniş təhlili və qiymətləndirilməsi təkcə pul-kredit siyasətinə düzəliş edilməsinə yox, həm də müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşmasına bankların təsirini stimullaşdırmaq məqsədilə onların real sektorda kredit fəaliyyətinin təkmilləşməsinə imkan verəcək;

- qarşılıqlı borcları yaradan əsas problem real sektorla kredit münasibətlərinin zəif inkişaf etməsidir. Başqa sözlə desək, kreditlərin bölgü prosesində, xüsusilə əlavə dəyərin bölüşdürülməsində zəif iştirak etməsi dövriyyədə pul çatışmazlığının və debitor-kreditor borclarının mövcud olaraq qalmasına şərait yaradır;

- bank siyasətinin səmərəliliyi baxımından müəssisələrin kreditləşdirilməsi üzrə diferensiallaşdırılmış sistem yaradılmalıdır.

- müəssisələrdə kredit resurslarından səmərəli istifadə etmək məqsədilə maliyyə resurslarından istifadə göstəricilərinin vəziyyəti, xüsusiyyəti və onun əmələ gəlməsi mənbələri nəzərə alınmalıdır. Uzunmüddətli kredit qoyuluşu zamanı resurslara olan tələbatın fasiləsizliyini təmin etmək üçün bütövlükdə istehsal sferasına kredit qoyuluşunun səmərəli istifadəsinə şərait yaradan kompleks amillərin öyrənilməsi zəruridir;

Fikrimizcə, qeyd edilən təkliflər qarşılıqlı borcların aradan qaldırılması üçün monetar alətlərin müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşmasına təsirinin artırılmasında mühüm praktiki və nəzəri əhəmiyyətə malikdir.

Aşağıda dissertasiya işinin əsas müddəalarından yaranan nəticələr verilmişdir:

- Dissertasiya işindəki göstəricilər əsasən retrospektiv təhlil aparmaq üçün nəzərdə tutulmuşdur. Onların əksəriyyətindən mühasibat hesabatının standart formalarının hesablanması üçün əsas kimi istifadə edildiyi halda, daxili təhlil zamanı təhlil subyektinə özünü yalnız bu cür standart formaların məlumatları ilə məhdudlaşdırmağa ehtiyac yoxdur.

- Müəssisənin maliyyə dayanıqlığının qiymətləndirilməsi, maliyyə vəziyyətinin ən mühüm xarakteristikalarından biri olaraq dərinləşdirilmiş metodika üzrə müəssisənin maliyyə dayanıqlığı şəraitinin riyazi təsvirindən çıxış edərək aparılır.

- Maliyyə təhlilinin nəzəriyyə və təcrübəsindəki müasir meyillər maliyyə əmsalları sisteminin şəkildəyişməsi, bu sistemin maliyyə menecmenti sahəsində adekvat idarəetmə qərarlarının qəbul edilməsi üçün əlverişli olan formaya gətirilməsi problemi ilə bağlıdır. Bunun üçün mövcud maliyyə



əmsallarından az sayda elə əmsalları seçmək lazımdır ki,onlar müəssisənin maliyyə vəziyyətini tam və hərtərəfli xarakterizə edə bilsinlər.

- Müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsi üçün göstəricilər dəsti müəyyən edilərkən maliyyə göstəricilərindən başqa qeyri-maliyyə göstəricilərindən də istifadə etmək təklif olunur. Ödəmə qabiliyyətinin üç kateqoriyadan olan göstərici ilə qiymətləndirilməsi əsaslandırılmışdır.

- Mütləq və nisbi göstəricilərin hesablanmasından başqa ödəmə qabiliyyəti göstəricilərinin amillər üzrə təhlilinə əsaslanmış yanaşmalar mövcuddur.

- Müsbət və mənfi pul axınının formalaşmasının bərabərliyi və sinxronluğu dərəcəsini qiymətləndirmək üçün orta kvadratik kənarlaşma, variasiya əmsalı və korrelyasiya əmsalı kimi göstəricilər verilmişdir.

- Ödəmə qabiliyyətinin qiymətləndirilməsi sisteminin fəaliyyətini tənzimləyən prosedurlar giriş informasiyasının kimdən, kimə, necə, hansı şəkildə və hansı müddətə daxil olmasını və çıxış informasiyasının ötürülməsini müəyyən etməlidir; bu informasiya kim tərəfindən, necə və hansı müddətə emal və təhlil olunur; ödəmə qabiliyyətinin qiymətləndirilməsi üçün hansı göstəricilərdən istifadə edilir. Bundan başqa bu prosedurlar ödəmə qabiliyyətinin qiymətləndirilməsi sisteminin verdiyi informasiya əsasında hansı hərəkətlərin və onların kim tərəfindən edilə bildiyini, eyni zamanda ödəmə qabiliyyətinin qiymətləndirilməsi sisteminin hər bir komponentinin dəyişməsi qaydası və mexanizmini müəyyən etməlidir.

- Mühasibat balansının məlumatlarından istifadə etməklə təhlilin əmsal üsulu ödəmə qabiliyyətinin təhlilinin ən geniş yayılmış üsuludur.Konkret sənaye müəssisəsində ödəmə qabiliyyətini xarakterizə edən göstərici və əmsalların hesablanması onun fəaliyyətini qiymətləndirməyə imkan verər.

- Müsbət, mənfi və xalis pul axınlarının formalaşması amillərinin öyrənilməsi üçün birbaşa və dolayı metodlardan istifadə etmək tövsiyə edilir.

- Pul vəsaitlərinin hərəkəti və pul resurslarının daxil və xaric olması üzrə büdcənin icrası müəssisəyə cari ödəmə qabiliyyətinə nəzarət etməyə və onun sabitləşdirilməsi üzrə operativ düzəldici tədbirlər görməyə imkan verir.

- Maliyyə dayanıqlığı göstəricilərinin müxtəlifliyini, onların böhranlı qiymətlərinin səviyyəsinin fərqli olmasını və bununla əlaqədar müəssisənin rəqabət qabiliyyətinin qiymətləndirilməsindəki mürəkkəbliyi və onun müflisləşməsi riskini nəzərə alaraq bir çox xarici və yerli iqtisadçılar skorinq təhlil əsasında maliyyə dayanıqlığının inteqral qiymətləndirilməsindən istifadəni tövsiyə edirlər.

-Dövlət borcu olduqda cari likvidliyin qiymətləndirilməsinin metodi-

kasından istifadə etmək olar. Hesablamaların sadəliyi, xarici hesabat bazasında onların həyata keçirilməsinin mümkünlüyü və əldə edilən nəticələrin əyaniliyi  göstərilən metodikanın əsas üstünlüyüdür.

- Ödəmə qabiliyyəti müəssisənin maliyyə vəziyyətinin aspektlərindən birini xarakterizə edən göstərici olduğu üçün əsas göstəricilər kateqoriyası məhz maliyyə göstəriciləri hesab olunmalıdır və müəssisənin ödəmə qabiliyyətinin təhlili metodikası tətbiq sferasından asılı olaraq fərqləndirilməlidir.

- Hazırkı Azərbaycan şəraitində müəssisənin dövriyyə vəsaitlərinin dövriyyəsinin sayı və sürətinə onun fəaliyyətindən asılı olmayan müştərilərin ödəmə qabiliyyəti, bank xidmətinin keyfiyyəti, əmtəələr (işlər, xidmətlər) üzrə hesablaşmalar sistemi, inflyasiya və s. kimi amillər təsir göstərə bilər. Bununla əlaqədar olaraq debitor və kreditor borcunun təhlilinə böyük diqqət yetirilməlidir.  Müəssisələrin büdcə ilə qarşılıqlı münasibətlərinin qaydaya salınması da onların ödəmə qabiliyyətinin möhkəmləndirilməsinin əsası olacaqdır.

- Qarşılıqlı borcu olan müəssisələrin inkişafını nəzərdə tutan xüsusi dövlət proqramı hazırlanmalı və o pul-kredit siyasətinin məqsəd və istiqamətləri ilə əlaqələndirilməli və maliyyə resurslarının real sektorda iqtisadi dövriliyini təmin etməlidir.

- Kreditlər üzrə faiz dərəcəsinin aşağı salınması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. Bunun üçün inflyasiyanı və real sektorda rentabellik normasını nəzərə alaraq bankların kredit aktivlərinin artırılmasını təmin etmək məqsədilə mərkəzləşdirilmiş kredit resurslarına görə faiz dərəcəsini və ehtiyat normasına ayırmaların məbləği azaldılmalıdır.

-Respublikada maliyyə sisteminin tənzimlənməsi və maliyyə sabitliyinin təmin edilməsi ilə əlaqədar görülən dövlət tədbirləri hesabına sənaye müəssisələrinin ödəməqabiliyyətlilik göstəriciləri xeyli yaxşılaşmışdır.Son dövrlər ərzində aparılan iqtisadi islahatlar, vergi və pul-kredit sisteminin, gömrük siyasətinin təkmilləşdirilməsi sənaye müəssisələrinin fəaliyyətinin hüquqi bazasının möhkəmləndirilməsinə imkan vermişdir.Lakin qeyd etmək lazımdır ki,göstərilən istiqamətlərdə görüləcək işlər çoxdur.

Dissertasiyanın əsas məzmunu aşağıdakı işlərdə öz əksini tapmışdır:

1. “Müəssisənin ödəmə qabiliyyətinin qiymətləndiriməsinin nəzəri əsasları”. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elmi Mərkəzi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri.Bakı: 2011. № 4, s.265-269

2. “Müəssisənin ödəmə qabiliyyəti göstəriciləri”. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elmi Mərkəzi. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri.Bakı: 2012. № 3, s.98-102

3. “Sənaye müəssisələrinin effektiv ödəmə qabiliyyətinin qiymətləndirilməsi göstəricilərinin formalaşması xüsusiyyətləri”. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası. Bakı: 2012, s.146-151

4. İnnovasiya yönümlü iqtisadiyyatda ödəmə qabiliyyəti olmayan müəssisələrin maliyyə vəziyyə-tinin təhlili xüsusiyyətləri”. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti, AMEA-nın İqtisadiyyat İnstitutu “İnnovasiya yönümlü inkişafın sosial-iqtisadi problemləri” Beynəlxalq elmi konfransının materialları. Sumqayıt: 2012, s.188-190

5. Pul vəsaitləri axınının öyrənilməsi əsasında müəssisənin ödəmə qabiliyyətinin qiymətləndirilməsi”. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransının materialları. I cild. Bakı: 2013, s.244-245

6. Müəssisələrdə ödəməmələr probleminin həlli yolları”. Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu. Elmi əsərlər Bakı: 2013, s.169-172

7. Пути решения проблем своевременной выплаты платежей предприятия” Инвестиции: Практика та Досвид..Науково-практичный журнал. (постанова президии ВАК Украйна № 1-05/2 вид 27.05.2009) 2014. № 3, стр. 95-97

8. Müəssisənin maliyyə sisteminin səmərəliliyi və ehtiyat mənbələri . Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu. Elmi əsərlər Bakı: 2014 №3, s . 184-187

## Направления повышения платежеспособности предприятий

Велиева Лала Мусаллим


### РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав,выводов и списка использованной литературы.

В введении обосновывается актуальность темы, определены цели и задачи, указаны объект и предмет исследования, теоретико – методологические основы, научная новизна исследования, практическая значимость работы, первычная апробация работы и внедрение выводов и.т.д

Первая глава диссертационной работы "Теоретические основы платежеспособности предприятия" рассмотрены вопросы платежеспособности, кредито-способности предприятий, методика оценки платежеспособности предприятий и различные подходы к ней.

Вторая главе диссертационный работы каторая называется "Анализ платежеспособности промышленных предприятий" исследуется значение, задачи и информационные источники анализа платежеспособности промышленных предприятий, оценка платежеспособности предприятий на основе изучения потока денежных средств, методы диагностики вероятности банкротства предприятий неплатежеспособных предприятий.

Третьий главе диссертации "Направления повышения платежеспособности предприятия" рассматриваются методика по выборке показателей характеризирующие платежеспособность и меры по упорядочению деятельности системы, основные направления по своевременной уплате платежей, меры по финансовому оздоровлению способствуюших повышению платежеспособности предприятий.

Диссертационная работа завершается выводами и предложениями и спискам использованной литератур.




## İn person of increasing the direction of enterprises payment ability

Valiyeva Lale Musellim


### SUMMARY

The dissertation work consists of an introduction, three chapters, result and references.

heme urgency is substiantiated, purpose and duties, object and predmet of the research, theoretical and methodological motivations, scientific innovation of the research, experimental significance of the work, initial method of the work and apply of the result is shown in the introduction.

The first chapter of dissertation work is named "The therotically motivations of the enterprise payment ability rate" the enterprise payment ability, credit ability and liquidity essence rating methods of payment ability and its different approch is reviewed in this chapter.

The secand chapter of dissertation work is named "The analysis of industrial enterprise payment ability" . Analysis significance, duities, and information sources payment ability in industrial enterprises, rating of enterprise payment ability on the base of cash flow study, diagnostic methods of enterprise bankruptcy probability, analysis feature of enterprise finacial situation without payment ability is investigated in this chapter.

The third chapter of the dissertation work is named " İn person of increasing the direction of enterprises payment ability".

The methodical recomendations on chosing the indicators for rating of payment ability and regulation events of system activity,main directions of payment in time realization, financial improvement events for payment ability incresment of enterprises were explored in this chapter.

The dissertation work ends with result, offers and references.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot çap vərəqi 1,0
sifariş № 157, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə çap olunmuşdur.
Gəncə şəhəri, Ozan küçəsi, 102.

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ВЕЛИЕВА ЛАЛА МУСАЛЛИМ**

# НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ПЛАТЕЖЕСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ

**5308.01 - «Общая экономика»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2015**